Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 14 – 24 noyabr 2024-cü il •**

**Ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması ilə bağlı görülən işlərin COP29 çərçivəsində təqdimatı**

**22.11.2024**

**qafqazinfo.az**

**COP29-da ekoloji təmiz nəqliyyat vasitələri ilə bağlı müzakirələr**



Ekoloji təmiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması ilə bağlı görülən işlər COP29 çərçivəsində təqdim olunub.

"Qafqazinfo" xəbər verir ki, COP29-un onuncu günündə Mavi Zonada "Urbanizasiya / Nəqliyyat / Turizm" günü çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən keçirilən yüksəksəviyyəli dəyirmi masada "Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə görülən işlər və əldə olunan nəticələr"in təqdimatı keçirilib.

Azərbaycan Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova daha təmiz dünya və daha dayanıqlı gələcəyin formalaşdırılmasında karbon izini azaltmağa yönəlmiş ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin rolunu xüsusi vurğulayaraq, ölkəmizdə bu sahədə aparılan islahatlar barədə məlumat verib.

Təqdimatda biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya çərçivəsində ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması istiqamətində görülən tədbirlər, o cümlədən aidiyyəti dövlət qurumlarının

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

təşəbbüsü ilə ölkəmizdə tətbiq olunan vergi və gömrük güzəştləri, habelə maliyyə əlçatanlığının artırılmasını hədəfləyən güzəştli kredit qaydaları barədə məlumat verilib. Qeyd olunub ki, təşviq sahəsində görülən işlər nəticəsində idxal olunan elektrik nəqliyyat vasitələrinin xüsusi çəkisi 2021-ci ildəki 0,19 faizdən 2023-cü ildə 3,5 faizə yüksəlib.

Eyni zamanda, elektrik enerjisi doldurma infrastrukturun inkişafı sahəsində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlərin və Vahid Elektrikdoldurma Platformasının əhəmiyyəti vurğulanıb. Bildirilib ki, hazırda "Azərişıq" ASC və digər dövlət təşkilatları ilə yanaşı, o cümlədən özəl sektor nümayəndələrinin təşəbbüsləri nəticəsində ümumilikdə 300-dən çox elektrikdoldurma cihazı quraşdırılıb.

Təqdimatda qeyd olunub ki, ölkəmizdə ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinə marağın və istifadə səviyyəsinin artırılmasına yönəlmiş kompleks tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

**Mənbə:**

https://qafqazinfo.az/news/detail/453782

**Digər saytlar və portallar**

1. https://azertag.az/xeber/ekoloji_temiz_neqliyyat_vasitelerinin_dovriyyesinin_stimullasdirilmasi_ile_bagli_gorulen_isler_cop29_da_teqdim_olunub-3294468
2. https://fed.az/az/diger/ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesinin-stimullasdirilmasi-ile-bagli-gorulen-isler-cop29-cercivesinde-teqdim-olunub-215708
3. https://www.bizimyol.info/az/news/519116.html
4. https://redaktor.az/news/country/261397
5. https://sia.az/az/news/economy/1207475.html
6. https://demokrat.az/az/news/213375/cop29-ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesi-stimullasdirilacaq-foto
7. https://tribunainfo.az/ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesinin-stimullasdirilmasi-ile-bagli-gorulen-isler-cop29-da-teqdim-olunub/
8. https://yenisabah.az/ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesinin-stimullasdirilmasi-ile-bagli-gorulen-isler-cop29-da-teqdim-olunub
9. https://redaktor.az/news/country/261350
10. https://www.manset.az/news/127067
11. https://www.azerbaijan-news.az/az/posts/detail/ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesinin-stimullasdirilmasi-ile-bagli-gorulen-isler-cop29-da-teqdim-olunubnbspnbsp-1732165413/345141

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

12. https://avtosfer.az/az/cop29/cop29-da-ekoloji-temiz-neqliyyat-vasiteleri-ile-bagli-muzakireler-foto-262775
13. https://viral.az/?p=47959
14. https://www.yerveinsan.az/news.php?id=32110
15. https://1xeber.media/gundem/2099-ekoloji-temiz-neqliyyat-vasitelerinin-dovriyyesinin-stimullasdirilmasi-ile-bagli-gorulen-isler-cop29-cercivesinde-teqdim-olunub.html
16. https://innews.media/az/news/id-38828
17. https://fhnews.az/news/details/ekoloji-tamiz-naqliyyat-vasitalarinin-doumlvriyyasinin-stimullasdirilmasi-ila-bagli-cc8845
18. https://xalqqazeti.az/az/ekologiya/203692-cop29-da-temiz-neqliyyat-teqdimati
19. https://ann.az/az/ekoloji-temiz-neqliyyat-vasitelerinin-dvriyyesinin-stimullasdirilmasi-ile-bali-grulen-isler-cop29-cercivesinde-teqdim-olunub/

## report.az

**Представитель Администрации президента: Азербайджан осознает важную роль транспортного сектора в изменении климата**

Азербайджан активно вносит вклад в снижение углеродного следа, осознавая важную роль транспортного сектора в изменении климата и стремясь к более чистой и устойчивой экономике. Как сообщает Report, об этом заявила старший консультант отдела по вопросам экономической политики и промышленности Администрации президента Гюльназ Джавадова на круглом столе высокого уровня "Зеленый городской транспорт" в




Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

рамках встречи министров по климату и урбанизации на COP29.
Джавадова отметила, что участие в COP29 дает возможность объединиться для решения одного из самых серьезных вызовов - построения устойчивого будущего для следующих поколений, и подчеркнула, что Азербайджан с гордостью возглавляет эту коллективную миссию.
Она также указала на проблемы, требующие скоординированных усилий, такие как ограниченная инфраструктура, высокие затраты на электротранспорт и недостаточная осведомленность населения о преимуществах устойчивой мобильности.
"Для преодоления этих препятствий была создана специальная рабочая группа и утверждена дорожная карта реформ, направленных на развитие экологически чистого транспорта. Важным шагом стали введенные в январе 2022 года льготы на импорт зарядных устройств для электромобилей. Сегодня в Азербайджане функционирует более 600 зарядных станций, более 70% из которых установлены частным сектором, что свидетельствует о крупных частных инвестициях в зеленую инфраструктуру страны", сказала она.
По словам Джавадовой, за последние 3 года импорт электромобилей в Азербайджан увеличился в 33 раза, что подтверждает приверженность страны созданию устойчивого и экологически сознательного будущего.

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

**Mənbə:**

https://report.az/ru/cop29/predstavitel-administracii-prezidenta-azerbajdzhan-osoznaet-vazhnuyu-rol-transportnogo-sektora-v-izmenenii-klimata/

**Digər saytlar və portallar**

1. https://www.trend.az/business/3972914.html
2. https://news.day.az/autonews/1708981.html
3. https://dzen.ru/news/by/story/377c54af-d1aa-5341-8dab-c89e5ac25345
4. https://report.az/cop29/pa-resmisi-azerbaycan-iqlim-deyisikliyinde-neqliyyat-sektorunun-esas-rolunu-derk-edir/
5. https://oxu.az/siyaset/gulnaz-cavadova-birlikde-biz-gelecek-nesiller-ucun-daha-yasil-ve-firavan-gelecek-yarada-bilek

**haqqın.az**

**Более 300 зарядных устройств для электромобилей в Азербайджане**

В десятый день COP29 в рамках дня «Урбанизация/Транспорт/Туризм» в Голубой зоне состоялся высокоуровневый круглый стол, организованный Министерством цифрового развития и транспорта Азербайджана.

Главный советник отдела экономической политики и промышленности Администрации президента Азербайджана Гюльназ Джавадова, в своем выступлении особо подчеркнув роль экологически чистых и безопасных транспортных средств, направленных на сокращение углеродного следа, проинформировала о проводимых в Азербайджане реформах в этой сфере.

В ходе презентации «Проделанная работа и достигнутые результаты по стимулированию оборота экологически чистых и безопасных транспортных средств и совершенствованию инфраструктуры» было отмечено, что доля импортируемых электрических транспортных средств выросла с 0,19% в 2021 году до 3,5% в 2023 году.

ыла подчеркнута важность мероприятий, проводимых ОАО «Азеришыг» в сфере развития инфраструктуры зарядки электромобилей, а также работы Единой платформы электрозарядки. Отмечено, что благодаря усилиям «Азеришыг», других государственных организаций и частного сектора установлено более 300 зарядных устройств для электромобилей.

В презентации было отмечено, что в Азербайджане планируется продолжить комплекс мер, направленных на повышение уровня использования и интереса к экологически чистым и безопасным транспортным средствам.

**Mənbə:**

https://haqqin.az/news/333433

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

**tedroid.com**

**Azərbaycana idxal olunan hər 5 avtomobildən biri elektrikli və ya hibriddir!**



Azərbaycana idxal olunan nəqliyyat vasitələri arasında elektrikli və hibrid nəqliyyat vasitələrinin payı təxminən iki dəfə artıb. Belə ki, hesabatlar göstərir ki, Azərbaycana idxal olunan hər 5 avtomobildən biri elektrikli və ya hibriddir.

Bu sözləri rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev naziri COP29 çərçivəsində baş tutan “Yaşıl Şəhər Nəqliyyatı” adlı Yüksək Səviyyəli Dəyirmi Masada ifadə edib. Habelə, onun sözlərinə görə, son bir neçə ildə Azərbaycan hökuməti ekoloji təmiz mühərrikli nəqliyyat vasitələrinin tədarükünü stimullaşdırmaq üçün ƏDV və gömrük rüsumlarından azad olma daxil olmaqla tədbirlər həyata keçirib. R. Nəbiyev bildirib ki, “Bu stimullar idxal olunan nəqliyyat vasitələri arasında elektrikli və hibrid nəqliyyat vasitələrinin payının 10,5 %-dən təxminən 20 %-ə qədər, demək olar ki, iki dəfə artmasına səbəb olub”.

Bundan əlavə, Prezident Administrasiyasının (PA) İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin baş məsləhətçisi Gülnaz Cavadova eyni tədbirdə Azərbaycan iqlim dəyişikliyində nəqliyyat sektorunun əsas rolunu dərk edərək karbon izini azaltmağa, daha təmiz, daha dayanıqlı iqtisadiyyata keçidə töhfə verir deyə bildirib. Onun sözlərinə görə, “Bu gün COP29-da iştirak etmək böyük şərəfdir. Çünki biz gələcək nəsillər üçün davamlı gələcək qurmaq üçün ən kritik çağırışlardan birini müzakirə etmək üçün birləşirik. Azərbaycan bu kollektiv missiyanın önündə qürurla dayanır”.

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

G.Cavadova əlavə edib ki, Azərbaycanın iddiaları fonunda koordinasiyalı fəaliyyət tələb edən problemlər, məhdud infrastruktur, elektrik nəqliyyat vasitələrinin yüksək ilkin xərcləri və dayanıqlı hərəkətliliyin faydaları haqqında ictimaiyyətin məlumatlılığının aşağı olması ölkənin üzləşdiyi maneələrdən yalnız bəziləridir: “2016-cı ildə yaradılmış Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Dövlət Komissiyası təşəbbüslər qarşısında maneələri dəyişdirən güclü dəstəkçi olub”. PA rəsmisi Azərbaycana son 3 ildə elektromobillərin idxalının 33 dəfə artdığını deyib: “Bu, Azərbaycanın dünya üçün davamlı və ekoloji şüurlu gələcək yaratmaq öhdəliyini və inamını vurğulayır. Transformativ dəyişikliklərin mümkün olduğuna inanırıq. Birlikdə biz gələcək nəsillər üçün daha yaşıl, daha təmiz və firavan gələcək yarada bilərik”.

**Mənbə:**

https://tedroid.com/elm-sosial/azerbaycana-idxal-olunan-5-avtomobilden-biri-elektrikli.html

**Digər saytlar və portallar**

1. https://report.az/cop29/nazir-azerbaycana-idxal-olunan-elektrikli-ve-hibrid-avtomobillerin-payi-2-defe-artib/
2. https://fed.az/az/avto/azerbaycana-idxal-olunan-elektrikli-ve-hibrid-avtomobillerin-payi-2-defe-artib-215618

Ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi 22.01.2024-cü il tarixində qəbul olunub.

**ESGhub.az platformasının təqdimatı**

**16.11.2024**

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

report.az

## Azərbaycan ESG platformasını COP29 çərçivəsində təqdim edib



Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycanın ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə, yəni ESG təcrübələri və təşəbbüsləri üzrə vahid onlayn məkanın – ESGhub.az platformasının ((https://esghub.az/ ) təqdimatı keçirilib. "Report" bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, platforma COP29-un “Mavi Zona”sında “Elm, Texnologiya və İnnovasiya / Rəqəmsallaşma” Günü çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən keçirilən yüksəksəviyyəli dəyirmi masada təqdim olunub.

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev bildirib: "Bu gün işgüzar dairələr və cəmiyyətlərin dayanıqlı inkişafa və etik dəyərlərə yanaşmasında böyük dəyişikliklərin şahidi oluruq. İqlim dəyişikliyi, sosial bərabərsizlik, dayanıqlı maliyyə, şəffaf idarəetmə ilə bağlı çağırışlar dünyada daha geniş miqyasda qəbul edilir və bu mənada ESG prinsiplərinin və ESG üzrə hesabatlılığın vacibliyi gündən-günə artır. Dövlət-biznes dialoqu çərçivəsində "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Azercell Telecom" MMC və digər maraqlı tərəflərin dəstəyi ilə yaradılan ESG Hub Azərbaycan platformasının istifadəyə verilməsi ilə bu çağırışlara cavab vermək hədəflənir".

Təqdimatda qeyd olunub ki, ESG Hub platforması sadəcə təqdim etdiyi çoxşaxəli resurslar vasitəsilə ESG sahəsində məlumatlılığın artırılmasını hədəfləmir, həm də dövlət və

özəl sektorun ESG səylərini birləşdirən netvörkinq platforması kimi davamlı və dayanıqlı gələcəyə töhfə vermək missiyası daşıyır. Bu platforma imkan verəcək ki, hər bir təşkilat öz fəaliyyətinə ESG dəyərlərini daxil edə bilsin, uzunmüddətli dayanıqlı inkişafa və gələcək nəsillərə töhfə versin. Vurğulanıb ki, ESG Hub təşkilatların ESG prinsiplərini gündəlik fəaliyyətlərinə və uzunmüddətli strategiyalarına daxil etmələrini asanlaşdırmaq üçün geniş imkanlar təqdim edir.

**Mənbə:**

https://report.az/cop29/azerbaycan-esg-platformasini-cop29-cercivesinde-teqdim-edib/

### Digər saytlar və portallar

1. https://modern.az/tehsil/495094
2. https://az.trend.az/business/3971034.html
3. https://oxu.az/iqtisadiyyat/esg-platformasi-cop29-cercivesinde-teqdim-olundu
4. https://bakivaxti.az/az/posts/detail/azerbaycan-esg-platformasini-cop29-cercivesinde-teqdim-edib-1731750680
5. https://xalqqazeti.az/az/last-news/202908
6. https://baki.media/az/article/62317
7. https://sitat.info/news/48834
8. https://ucnoqta.az/news/212893
9. https://olke.az/dunya/400737/
10. https://cebheinfo.az/gundem/azerbaycan-esg-platformasini-cop29-cercivesinde-teqdim-edib_864
11. https://bakues.az/az%c9%99rbaycan-esg-platformasini-cop29-c%c9%99rciv%c9%99sind%c9%99-t%c9%99qdim-edib/
12. https://milletinsesi.info/az/article/88943
13. https://sizinxeber.az/cop29/46517-azrbaycan-esg-platformasn-cop29-rivsind-tqdim-edib.html

**report.az**

### Azerbaijan presents ESG platform at COP29

The presentation of ESGhub.az platform (https://esghub.az/), a unified online space for Azerbaijan's environmental, social and governance (ESG) practices and initiatives, was held on the sidelines of COP29 in Baku, Report informs, citing the Small and Medium Business Development Agency under the Azerbaijani Ministry of Economy.

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.




The platform was presented at a high-level roundtable held by the Ministry of Digital Development and Transport and the International Telecommunication Union as part of Science, Technology and Innovation / Digitalization Day in the Blue Zone of COP29.

Vusal Shykhaliyev, Head of Secretariat of Azerbaijan's Commission on Business Environment and International Rankings, and Sector Manager of the Department of Economic Policy and Industry Issues of the Presidential Administration, said: "Today we are witnessing major changes in business circles and societies' approach to sustainable development and ethical values. Amid challenges related to climate change, social inequality, sustainable finance, and transparent governance the importance of ESG principles and ESG reporting is increasing day by day. The launch of the ESG Hub Azerbaijan platform, created with the support of the International Bank of Azerbaijan OJSC, Azercell Telecom LLC and other stakeholders within the framework of public-private dialogue, aims to address these challenges."

During the presentation, it was noted that the ESG Hub platform not only aims to raise awareness in the ESG field through its multifaceted resources but also serves as a networking platform that combines public and private sector ESG efforts to contribute to a sustainable future. This platform will enable every organization to incorporate ESG values into their operations and contribute to long-term sustainable development and future generations. It was emphasized that ESG Hub offers extensive opportunities to facilitate organizations' incorporation of ESG principles into their daily operations and long-term strategies.

**Mənbə:**

https://report.az/en/cop29/azerbaijan-presents-esg-platform-at-cop29/

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.

**“Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti**

**24.11.2024**

**yeniazerbaycan.com**

**Azərbaycan ən yüksək reytinq balına layiq görülüb**

***Biznesə dəstək verən vergi mühiti***

Vergi orqanları tərəfindən həyata keçirilən tədbirlər ölkədə sahibkarlığın inkişafı, rəqabət qabiliyyətinin artırılması, qabaqcıl beynəlxalq təcrübəyə uyğun daha da cəlbedici biznes və investisiya mühitinin formalaşdırılması sahəsində aparılan islahatlara əhəmiyyətli töhfə verir. Azərbaycan biznesə başlama üzrə dünyada ən yaxşı təcrübələrdən birinə malikdir. Belə ki, ölkəmizdə hüquqi şəxslərin cəmi bir prosedurla onlayn dövlət qeydiyyatına alınması üçün əlverişli şərait yaradılıb. 2019-cu ilin əvvəlindən başlayaraq dövlət qeydiyyatının aparılmasının bir prosedurla tamamlanması təqdim olunur. Qeydiyyatın həyata keçirilməsi üçün e-ərizənin elektron imza ilə təsdiq edilməsi zərurəti aradan qaldırılıb, eləcə də qeydiyyatla bağlı əvvəllər mövcud olan bütün prosedurlar ləğv olunub. Nəticədə hüquqi şəxsin qeydiyyatı prosedurlarının sayı 3-dən 1-ə, müddəti isə 20 dəqiqəyədək azaldılıb, biznesə başlamaq üçün maliyyə vəsaiti və sənəd sayı sıfıra endirilib. Yeni qeydiyyat sisteminə əsasən, qeydiyyat sənədləri vergiödəyicisinin elektron kabinetinə onlayn qaydada göndərilir və bu sənədlərin kağız daşıyıcılarda götürülməsinə zərurət qalmır.

***İnvestisiya mühitinin yaxşılaşdırılması***

Ölkəmizin vergi sistemində aparılan islahatlar biznes və investisiya mühitinin təkmilləşdirilməsinə xidmət edir və son illərdə öz mühüm nəticələrini göstərməkdədir. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilib, bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunub. Müəyyən edilmiş hədəfə nail olmaq üçün dövlət tərəfindən dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlara dəstək və təşviq mexanizmlərinin formalaşdırılması, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi, beynəlxalq standartlara uyğun elektron xidmətlərin göstərilməsi və digər sahələri əhatə edən kompleks tədbirlər həyata keçirilir.

***Uğurlarımız beynəlxalq müstəvidə***

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

Azərbaycanın apardığı vergi islahatları davamlı olaraq beynəlxalq təşkilatlar və forumlar tərəfindən təqdir edilir. 2021-ci ildə ölkəmizin vergi administrasiyası dünya üzrə kommersiya qeydiyyatçılarının 60-a yaxın qurumunu özündə birləşdirən Korporativ Qeydiyyatçılar Forumunun (CRF) İnnovasiya Mükafatına layiq görülüb. Dövlət Vergi Xidməti 2012-ci ildə CRF-in tamhüquqlu üzvüdür. CRF tərəfindən 2020-ci ilin may ayında iki nominasiya üzrə müsabiqə elan edildi. 2021-ci il dekabrın 31-dək davam edən müsabiqədə Dövlət Vergi Xidməti “Bir prosedurla dövlət qeydiyyatı” (State registration with single procedure) layihəsi ilə çıxış edib və müsabiqənin nəticələrinə əsasən, “Təqdir” kateqoriyasında qalib gəlib. Ümumiyyətlə, Dövlət Vergi Xidməti tərəfindən qeydiyyat sisteminin təkmilləşdirilməsi istiqamətində təcrübəni artırmaq üçün beynəlxalq əməkdaşlıq diqqətdə saxlanılır. Qurum biznes reyestri siyasətinə, əməliyyatlarına və texnologiya təşəbbüslərinə dair məlumat verən biznes reyestri mütəxəssislərinin birliyi olan Avropa Biznes Qeydiyyatçıları Assosiasiyası ilə də sıx əməkdaşlıq edir. Təşkilatın əsas məqsədi əməkdaşlıq edən biznes qeydiyyatçılarının beynəlxalq icmasının yaradılmasıdır.

***“Business Ready” hesabatında layiqli yer naminə***

Azərbaycanın vergi administrasiyasının əldə etdiyi nailiyyətlərin mühüm əsaslarını son illərdə ölkədə həyata keçirilən əhatəli vergi siyasəti tədbirləri, o cümlədən vergi inibatçılığının təkmilləşdirilməsi və optimallaşdırılması, sahibkar-məmur münasibətlərinin ən müasir çevik rəqəmsal platforma üzərində tənzimlənməsi, vergi yükünün aşağı salınması və digər islahatlar təşkil edir.

Vergi orqanları tərəfindən biznes mühitinin təkmilləşdirilməsi istiqamətində yeni mütərəqqi təcrübələrin tətbiqi imkanları hazırda ön planda dayanan məsələlərdəndir. Bu məqsədlə biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Biznesə daxilolma” işçi qrupu Dünya Bankı Qrupunun “Əlverişli biznes mühiti” layihəsinin “Biznesə daxilolma” indikatoru üzrə əhatəli diaqnostikanın və müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair Yol Xəritəsi hazırlanıb. Bu çərçivəyə əsasən, “Doing Business” hesabatının əvəzində yeni beynəlxalq iqtisadi qiymətləndirmə indeksini müəyyən edən “Business Ready” (B-Ready) tədqiqatının hazırlanması istiqamətində təhlillər davam etdirilir. Biznes və investisiya mühitinə təsir edən müxtəlif sahələrdə institusional islahatlar, ələxsus da vergi yükü və vergi dərəcələri, biznesin fəaliyyətində vergiqoymanın təsirləri, kommunal xidmətlər, əmək münasibətləri, maliyyə xidmətləri, beynəlxalq ticarət, bazar rəqabəti, mübahisələrin

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

həlli kimi əsas alt-indekslər üzrə təkmilləşdirmələr həyata keçirilməkdədir.
Vergi orqanı yeni reallıqları nəzərə alaraq Dünya Bankı ilə müasir çağırışlar fonunda “Əlverişli biznes mühiti” adlı yeni layihə çərçivəsində islahatları və iqtisadi təşəbbüslərə yer verməyi planlaşdırır. Belə ki, “Əlverişli Biznes Mühiti” layihəsinin “Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələr həyata keçirilib. Yol Xəritəsinə uyğun olaraq biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində 30-dan çox tədbir həyata keçirilib. Biznesin qeydiyyatının sadələşdirilməsi çərçivəsində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” qanuna edilmiş dəyişikliyə əsasən, yerli və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib, xarici mənşəli sənədlərin elektron portal üzərindən notariusa göndərməklə məsafədən tərcüməsinin notariat qaydasında təsdiqlənməsi xidmətindən yararlanaraq müvafiq vergi orqanlarına elektron formada təqdim etmək imkanı yaradılıb. Əmək, Mülki və İnzibati Xətalar Məcəllələrinə dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq iyun ayında Milli Məclis tərəfindən təsdiqlənib. Həmçinin, 2024-cü ildən kommersiya hüquqi şəxsin onlayn qeydiyyatı zamanı “SİMA” elektron imzanın tətbiqinə başlanılıb.

***Başlıca məqsəd...***

“Business Ready” hesabatının “Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsində 2 altindikator üzrə 4 komponent çərçivəsində 16 müxtəlif tədbirin icrası ilə bağlı işlər yekunlaşmaqdadır. “Vergitutma” indikatoru üzrə 2024-cü il üzrə Yol Xəritəsi üzrə isə 6 altindikator üzrə 9 komponent çərçivəsində 42 müxtəlif tədbirin icrasını nəzərdə tutulur ki, vergi qaydalarının aydınlığı və şəffaflığını, ətraf mühit vergilərini, vergi inzibatçılığının rəqəmsallaşdırılmasını, vergi auditi, mübahisələrin həlli mexanizmi və vergi orqanında idarəetmə tədbirlərini əhatə edir.
Bu istiqamətdə aparılan islahatların başlıca məqsədi Azərbaycanın Dünya Bankının yeni təkmilləşdirilmiş və müasir meyarlar üzrə qiymətləndiriləcək hesabatında öz layiqli yerini təmin etməkdən ibarətdir. Azərbaycan Dünya Bankının yeni və daha şəffaf hesabatında islahatçı ölkələr qrupunda qalmaq iddiasındadır.....................

**Məqalənin geniş variantı ilə mənbədə göstərilən link vasitəsilə tanış olmaq olar.**

https://yeniazerbaycan.com/xeberlenti_e113216_az.html

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

“Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti

20.11.2024

respublika-news.az

**Sahibkarlıq fəaliyyəti üçün əlverişli ekosistem yaradılır**

Birbaşa xarici sərmayə axını yalnız yerli bazarın cəlbediciliyindən deyil, daha geniş anlamda əlverişli biznes mühitindən, infrastrukturdan, qanunlardan və biznesə başlamaq prosedurlarının sadəliyindən asılıdır. Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvaba məxsus bu fikirlər ölkələrin iqtisadi strategiyalarını formalaşdırarkən biznes mühitinin təkmilləşdirilməsini nəzərdə tutur. Hər bir ölkə üçün xarici biznes subyektlərini cəlb etmək prioritetdir. Bunun üçün milli iqtisadiyyatın inkişaf hədəflərini formalaşdıran zaman xarici sərmayədarların istəklərini nəzərə almaq önəmlidir. Xarici investorlar yalnız ölkənin maliyyə potensialına baxmır, bütün biznes ekosistemini qiymətləndirirlər.

***Biznes mühitində sərfəli şərtlər artır***

Ölkəmizin hazırkı sosial-iqtisadi səviyyəsi inkişafın keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün geniş imkanlar yaradır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" məhz həmin imkanlardan səmərəli istifadə yollarını və inkişafın davamlılığının təmin edilməsi üçün strateji hədəfləri müəyyən edən proqram xarakteri daşıyır. Konsepsiyada qeyd olunan hədəflərə çatmaq üçün ölkəmizin vergi sistemi qarşısında investisiyalar üçün əlverişli vergi şərtlərinin və stimullaşdırıcı vergi siyasətinin tətbiq olunması, "kölgə iqtisadiyyatı" ilə sistemli mübarizə aparılması, habelə şəffaflıq səviyyəsinin artırılması üçün vergi siyasətində rəqəmsallaşmanın genişləndirilməsi kimi vəzifələr qoyulub. Bu məqsədlə biznes mühiti son illər mütəmadi olaraq təkmilləşdirilir və investorlar üçün cəlbediciliyi artırılır. Son illər sahibkarlıq subyektləri arasında xarici investisiyalı şirkətlərin sayının artması da bu fikri təsdiq edir. Xarici investisiyalar üçün əlverişli mühit yaradan amillərdən biri də biznes təhlillərinin aparılmasıdır.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Biznesə daxilolma" işçi qrupuna rəhbərlik edən Dövlət Vergi Xidməti (DVX) ölkəmizdə biznesə daxilolma sahəsində tənzimləyici çərçivənin hazırlıq səviyyəsinin təhlilini aparıb. Bu sahədə son illərdə tətbiq edilmiş mütərəqqi təcrübələr nəzərə alınmaqla yenilənmiş təhlil biznesə başlamanın əsas məqamları, o cümlədən biznesin qurulması və əməliyyatların başlanması üçün xidmətlərin qarşılıqlı əlaqəsi, məlumatların onlayn mövcudluğu kimi aspektləri əhatə edir. Bir növ biznes bələdçisi

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

olan bu resurs Azərbaycanda fəaliyyət göstərmək istəyən xarici investorlar üçün də əlçatandır və DVX-nin rəsmi saytında yerləşdirilib.

***Xarici investorlar üçün bərabər imkanlar***

Sahibkarlığın dəstəklənməsi və ölkədə investisiya şərtlərinin səmərəliliyinin artması qanunvericilik səviyyəsində yeni mərhələni əhatə edir. Bu mərhələ vergi siyasəti ilə biznes mühitinin təkmilləşdirilməsi, investisiya şərtlərinin optimallaşdırılması və sərmayədarlar üçün bir sıra üstünlüklərin formalaşdırılması ilə səciyyələnir. Bu xüsusda Azərbaycanda xarici investisiyalı hüquqi şəxslərin təsisçilərinin xarici fiziki və ya hüquqi şəxs olmasına baxmayaraq, elektron qaydada dövlət qeydiyyatına alınması üçün hüquqi əsasların yaradılmasını qeyd etmək yerinə düşər. Bir müddət əvvəl biznesin qeydiyyatının sadələşdirilməsi və qeyd olunan islahatların həyata keçirilməsi məqsədilə Dünya Bankı Qrupunun "Business Ready" layihəsi üzrə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən "Biznesə daxilolma" işçi qrupunun təşəbbüsü ilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq Milli Məclisdə qəbul edilib və dövlət başçısı tərəfindən təsdiqlənib. Yenilənmiş qanunvericiliyə əsasən yerli və xarici investisiyalı MMC-lərin elektron dövlət qeydiyyatı prosedurları eyniləşdirilib. Bu yenilik ölkədə xarici subyektlər üçün elektron qeydiyyat xidmətini tamamilə əlçatan etməklə biznesə başlama prosesini asanlaşdırıb. Ölkəmizin investisiya cəlbediciliyinin artırılmasında mühüm əhəmiyyət kəsb edən bu addımdan irəli gələn texniki şərtlər də yerinə yetirilir. Bütün bunlar davamlı investisiya axınının təmin edilməsinə, şəffaf tənzimləmə sistemi və sabit idarəetmə ilə əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. Bu isə nəticədə beynəlxalq kapitaldan geniş istifadə, sabit maliyyə axını və davamlı iqtisadi artım təminatını vəd edir.

**Mənbə:**

https://www.respublika-news.az/az/news/sahibkarliq-fealiyyeti-ucun-elverisli-ekosistem-yaradilir

“Biznesə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 05.04.2024-cü il tarixində təsdiq olunub.

**“Su şəbəkələrinə qoşulma” işçi qrupunun fəaliyyəti**

**22.11.2024**

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü il tarixində təsdiq olunub.

qafqazinfo.az

**Su şəbəkələrinə qoşulmanın asanlaşdırılması iqtisadi islahatların tərkib hissəsi kimi...**



“Biznes mühitinin yaxşılaşdırılmasının əsas göstəricilərindən biri biznes subyektlərinin fəaliyyəti üçün zəruri olan infrastruktur səviyyəsindən və əlçatanlığından birbaşa asılıdır”. “Qafqazinfo” xəbər verir ki, bu fikirləri iqtisadi ekspert Samir Heydərov bildirib.

Ölkə rəhbərliyi tərəfindən hər zaman bu istiqamətdə görüləcək işlərin diqqət mərkəzində olduğunu deyən ekspert bu ilin mayında “Su şəbəkələrinə qoşulma” işçi qrupunun təşkil etdiyi genişləndirilmiş iclasda su şəbəkəsinə qoşulma üzrə iqtisadi islahatlar, o cümlədən su təchizatı və kanalizasiya sistemlərinə qoşulması üçün Vahid Pəncərə sisteminin yaradılması barədə keçirilən təqdimatları xatırladıb: “Prezidentin 1 may 2024-cü il tarixli müvafiq fərmanı ilə “Su təchizatı və tullantı suları haqqında” qanununda dəyişikliklərin qüvvəyə minməsi ilə su şəbəkəsinə qoşulma üzrə mühüm iqtisadi islahatın aparılması bu sahədə yeni inkişaf mərhələsinin başlanılmasına və biznes mühitinin əlverişliliyinin daha da artırılmasına böyük imkanlar yaradıb. Yeni islahat nəticəsində qanunvericiliyin tələblərinə əsasən su şəbəkəsinə qoşulma üzrə prosedurların sayı 13-dən 3-ə, qoşulma müddəti 60 gündən 30 günə endirilib, qoşulma

xərcləri sahəsində şəffaf və aydın tənzimləmə mexanizmi ilə bağlı normativ hüquqi baza yaradılıb”.

Ekspertin fikrincə, iqtisadi islahatlar biznes subyektlərinin su sistemlərinə qoşulmasını asanlaşdırmaqla eyni zamanda şəffaflığı təmin edib: “Bu da öz növbəsində biznes fəaliyyətini asanlaşdıraraq ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edən amillərdən birinə çevrilib. Baxmayaraq ki, ölkəmizin su ehtiyatlarının 70-75 faizi ölkə xaricində formalaşır.

Su və tullantı sularının axıdılması sisteminə qoşulma istiqamətində bir çox region ölkələrindən öndə olduğumuzu vurğulayan ekspert suyun qiymətinin region ölkələri ilə eyni olduğunu söyləyərək suyun 1 m3-nun qiymətinin Avropa Birliyinə daxil olan ölkələrdən çox aşağı olduğunu da diqqətə çatdırıb. Onun sözlərinə görə, işğaldan azad olunan ərazilərimizdə daxili mənbələr hesabına formalaşan su ehtiyatlarının olması kənd təsərrüfatının inkişafı üçün regionda böyük imkanlar yaradır”.

Məlumat üçün qeyd edək ki, ölkəmizdə adam başına aylıq su norması sayğac quraşdırılmayan istehlak qrupları üçün 5 m3 təyin edilib. Yeni sərəncam həm biznesin inkişafına, həm də sudan effektli istifadəyə zəmin yaradacaq.

**Mənbə:**

https://qafqazinfo.az/news/detail/su-sebekelerine-qosulmanin-asanlasdirilmasi-iqtisadi-islahatlarin-terkib-hissesi-kimi-453913

**Digər saytlar və portallar**

1. https://unikal.az/news/457850/su-sebekelerine-qosulmanin-asanlasdirilmasi-iqtisadi-islahatlarin-terkib-hissesi-kimi-ekspert-reyi

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü il tarixində təsdiq olunub.

**“Elektrik təchizatı şəbəkələrinə qoşulma” işçi qrupunun fəaliyyəti**

**22.11.2024**

qafqazinfo.az

**Elektrik təchizatı şəbəkəsinə qoşulmada vəziyyət necədir?**



İqtisadi sahədə keçid dövrünü başa vuran ölkəmizdə infrastruktur layihələrin inkişafının yeni mərhələsi uğurla davam edir. Dövlətin əsas vəzifələrindən biri kimi mütərəqqi islahatlar həyata keçirməklə, bu prosesdə hər bir vətəndaşın iştirakını təmin etməkdir. Biznes mühitinin müxtəlif sahələrinə dair qanunvericiliyin təkmilləşdirilməsi, elektron dövlət xidmətləri barədə zəruri məlumatların maraqlı tərəflərə çatdırılması prioritet məqsədlərdən biri hesab edilir.

“Azərişıq” ASC tərəfindən elektrik təchizatı şəbəkəsinə qoşulma üzrə müraciətlərin informasiya sistemi, birbaşa, poçt və elektron poçt vasitəsilə həyata keçirilməsi isteklakçı məmunluğunu yüksəldən cəhətlərdəndir. Elektrik təchizatı şəbəkəsinə qoşulma prosesində “Azərişıq” ASC-də abonentlərin müraciətlərinin operativ qaydada təmin edilməsi əsas öhdəliklərdən biri hesab edilməklə, xidmət keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması müvəffəqiyyətlə təmin edilir. Elektrik təchizatı sahəsində maraqlı tərəflərin məlumatlılıq səviyyəsinin artırılması istiqamətində bütün zəruri məlumatlar, o cümlədən şəbəkəyə qoşulma ilə bağlı yeni qaydalar, elektron

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub.

xidmətlər, qoşulma kalkulyatoru, gərginlik barədə məlumatlara “Azərişıq” ASC-nin rəsmi internet səhifəsidə geniş yer ayrılıb.

Elektron Hökumət Portalında ümumi siyahıda “Azərişıq” ASC-nin vətəndaşlar və sahibkarlar üşün təqdim edilən abonent kodunun passiv və aktiv olunması üçün müraciətlərin qəbulu, abonentin geniş tarixçəsinin verilməsi, borcun araşdırılması və borcun olmaması barədə sənədin verilməsi, coxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyata alınması, elektrik təchizatı sistemlərinin layıhələndirilməsi və quraşdırma işləri, enerji təchizatı şəbəkəsinə qoşulma, istehlakçıların balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi, məcburi köçkün qrupuna aid abonentlərdən müraciətlərin qəbulu, əhali və qeyri-əhali istehlakçılarının ad dəyişdirilməsi, qeyri-əhali qrupuna aid abonentlərə üzləşmə aktlarının verilməsi, ödənişlərin bərpası, sayğacın zədələnməsinin araşdırılması üçün müraciətlərin qəbulu, smart kartların bərpası və yenisinin verilməsi, yük hesabatının hesablanması, enerji haqlarının internet vasitəsi ilə ödənilməsi kimi xidmətlər digər qürumlardan fərqli olaraq elektron xidmətlərin ən genişhəcmlisi hesab edilə bilər.

Biznes mühitinin müxtəlif sahələrinin tənzimləyici çərçivələri məlumatların qorunması, maliyyə hesabatları və elektron xidmətlərlə bağlı fəaliyyətin operativliyinin təmin edilməsində mühüm rol oynayır. Qeyd olunan tənzimləyici çərçivələr ölkəmizdə vətəndaşlar və sahibkarlara elektrik təchizatı şəbəkəsinə qoşulmada operativliyin təmin edilməsi, əlverişli biznes mühitinin təmin olunmasına dəstək, biznes mühitinin müxtəlif sahələrində riskləri idarə etmək, normativ-hüquqi bazayaya uyğun olaraq həssas məlumatları qorumağa kömək edən strukturlaşdırılmış təlimatlar təqdim edir.

*Yalçın Köçərli*

**Mənbə:**

https://qafqazinfo.az/news/detail/elektrik-techizati-sebekesine-qosulmada-veziyyet-necedir-453899

**Digər saytlar və portallar**

1. https://demokrat.az/az/news/213523/elektrik-techizati-sebekesine-qosulmada-veziyyet-necedir

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub.

**Sahibkarlar üçün elektrik enerjisi islahatları: Sadələşdirilmiş qoşulma və yaşıl enerji - Cahid Mikayılov**



*Azərbaycan Respublikası Energetika Nazirliyinin Mətbuat sektorunun müdiri - Mətbuat katibi Cahid Mikayılovun Fins.az-a müsahibəsi.*

**- Azərbaycanda son dövrlərdə elektrik enerjisi şəbəkəsinə qoşulma sahəsində hansı əsas dəyişikliklər həyata keçirilib?**

- Son illərdə Azərbaycanda elektrik enerjisi şəbəkəsinə qoşulma sahəsində əhəmiyyətli islahatlar həyata keçirilib. Bu istiqamətdə Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyasının "Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupunun fəaliyyəti xüsusi əhəmiyyətə malikdir. Elektrik şəbəkəsinə qoşulmada əlçatanlığın təmin edilməsi, müraciət prosesinin daha da sadələşdirilməsi məqsədilə "Bir pəncərə" prinsipi tətbiq edilib. Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması üçün KOB evləri, "ASAN Kommunal" və "ASAN xidmət" mərkəzləri vasitəsilə birbaşa müraciət edilir.

Bundan əlavə, müraciətlərin elektronlaşdırılması ilə proseslərin daha sürətli və şəffaf olması təmin edilib. Artıq vətəndaşlar və sahibkarlar //e-gov.az və ya //e-service.azerishiq.az portalları vasitəsilə müraciətlərini edib, şəbəkəyə qoşula bilərlər.

Tarif (qiymət) Şurasının 2024-cü il 3 may tarixli müvafiq Qərarı ilə elektrik şəbəkəsinə qoşulma xidmətinə görə ödəniş məbləği hər kVt güc üzrə müəyyənləşdirilib ki, bu

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub.

da elektrik şəbəkəsinə qoşulma prosesinin rəsmiləşdirilmə mərhələsinin daha da sadələşdirilməsinə imkan yaradıb. Bununla yanaşı, tikinti obyektlərinin mövcud 0,4 kV-luq şəbəkədən elektrik təchizatı şəbəkəsinə sadələşdirilmiş prosedurlar və şərtlərlə qoşulması 150 kVt-dan 200 kVt güc həddinə yüksəldilib.

**- "Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupunun funksiyaları və əsas prioritetləri hansılardır?**

- Energetika Nazirliyinin rəhbərlik etdiyi İşçi qrupunun əsas məqsədi sahibkarlarlıq subyektlərinin tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji alması prosedurlarının sadələşdirilməsi, proseslərin optimallaşdırılması, nəticədə ölkəmizdə biznes sahəsinin inkişafına töhfə verməkdir. İşçi qrupunun prioritetləri arasında elektrik şəbəkəsinə qoşulma prosesində şəffaflığın təmin edilməsi, elektron müraciətlərin təşviq olunması və beynəlxalq təcrübələrin tətbiqi yer alır. Eyni zamanda, işçi qrupun fəaliyyətində prosedurların hüquqi çərçivəyə uyğunlaşdırılması və sayının azaldılması, qoşulma müddətinin tezləşdirilməsi, ictimaiyyətlə daha effektiv kommunikasiya və yaşıl enerji mənbələrinin istifadəsinin təşviqi də nəzərə alınır.

**- Azərbaycanda elektrik enerjisi şəbəkəsinə qoşulma prosesində beynəlxalq təcrübədən hansı yanaşmalar nümunə götürülüb?**

- Beynəlxalq təcrübədən öyrənilmiş əsas yanaşmalar arasında "Bir Pəncərə" modeli xüsusi yer tutur. Bu model müraciət edən şəxslərin prosedurları bir mərkəzdən asanlıqla idarə etmələrini təmin edir.

Digər tərəfdən, aktiv istehlakçı modeli də tətbiq olunub. Artıq istehlakçılar öz enerji tələblərini qarşılamaqla yanaşı, istehsal etdikləri yaşıl enerjini şəbəkəyə ötürə və bunun müqabilində əlavə gəlir əldə edə bilərlər. Həmçinin, müraciətlərin rəqəmsallaşdırılması və elektron platformalar üzərindən idarə edilməsi beynəlxalq standartlara tam uyğundur.

**- Elektrik enerjisi şəbəkəsinə qoşulma prosedurunun sadələşdirilməsi ilə bağlı onlayn platformaların rolu nədən ibarətdir?**

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub.

- Əvvəldə də adını çəkdiyimiz //e-gov.az və //e-service.azerishiq.az kimi onlayn platformalar elektrik şəbəkəsinə qoşulmanın sürətləndirilməsində və müraciət edənlərin işini asanlaşdırmaqda mühüm rol oynayır. Bu platformalar vasitəsilə istifadəçilər evdən və ya iş yerindın çıxmadan müraciətlərini həyata keçirə, müraciətlərinin statusunu izləyə və tələb olunan məlumatları əldə edə bilərlər. Bu, şəffaflığı artırmaqla yanaşı, insan müdaxiləsini minimuma endirərək prosesin obyektivliyini təmin edir.

**- Biznes mühitinin yaxşılaşdırılması üçün elektrik enerjisinə qoşulma sahəsində hansı konkret nəticələr əldə olunub?**

- Sahibkarlığın inkişafı və yeni iş yerlərinin açılması ölkəmizin inkişaf strategiyasının əsas istiqamətlərindən biridir və elektrik enerjisinə qoşulma sahəsində həyata keçirilən islahatlar biznes mühitinin yaxşılaşdırılmasına birbaşa töhfə verir. Məsələn, əvvəllər gücü 150 kVt-a qədər olan obyektlərin elektrik şəbəkəsinə qoşulması sadələşdirilmiş rejimdə həyata keçirilirdisə, indi bu güc 200 kVt-a qədər qaldırılıb, qoşulma müddəti isə 41 gündən 20 günə qədər azaldılıb. Qoşulma üçün prosedur sayı əvvəl 7 idisə, indi 2 prosedurda elektrik şəbəkəsinə qoşulmaq mümkündür. Eyni zamanda, indi gücü 150 kVt-a qədər olan bərpa olunan enerji qurğuları ilə yaşıl enerji istehsal etmək istəyənlər üçün aktiv istehlakçı modelinin tətbiqi bizneslərə öz enerji ehtiyaclarını daha səmərəli idarə etmək və əlavə gəlir əldə etmək imkanı verir.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupunda bu prosedurların daha da sadələşdirilməsi üçün müntəzəm olaraq müzakirələr aparılır, təkliflər hazırlanır və tədbirlər görülür.

**Mənbə:**

https://fins.az/senaye/326279/sahibkarlar-ucun-elektrik-enerjisi-islahatlari-sadelesdirilmis-qosulma-ve-yasil-enerji-cahid-mikayilov/

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub.